1.qxd 11.04.2022 14:55 Page 1



Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 05-06 (6049-6050) 30 mart 2022-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik

## Novruz bayramı münasibəti ilə ümumrayon şənliyi



Rayon Mədəniyyət Mərkəzinin qarşısındakı meydanda Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, rayon icra hakimiyyəti başçısı aparatının, idarə, təşkilat və müəssisələrin kollektivləri, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, ağsaqqallar, ziyalılar, rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə bayram tədbiri keçirildi.

Öncə bayram tonqalını rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev və şəhid ataları Tahir Mövlanov və Rəbbil Heydərov tərəfindən alovlandırıldı.



Cəlil Baxşıyev min illər boyu xalqımız tərəfindən qeyd edilən, milli birlik və həmrəylik rəmzi olan müqəddəs Novruz bayramı münasibəti ilə rayon əhalisini təbrik etdi, hər bir ailəyə bol ruzi, xoşbəxtlik və səadət arzuladı. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasından söhbət açaraq arzusunda olduğumuz Qarabağda artıq Novruz tonqallarının alovlandığını qeyd etdi.



Sonra tədbir iştirakçıları Mədəniyyət Mərkəzinin foyesində bayram münasibəti ilə təşkil edilmiş əl işləri və xalq sənətkarlığı nümunələrindən ibarət sərgi ilə tanış oldular.



Mədəniyyət Mərkəzində davam etdirilən tədbirdə rayon Mədəniyyət Mərkəzinin və kənd mədəniyyət evlərinin rəqs ansambllarının üzvləri və özfəaliyyət kollektivlərinin ifasında Novruzun rəmzi olan Kosa və Keçəlin iştirakı ilə yumoristik səhnələr, qədim xalq rəqsləri və oyunlar nümayiş etdirildi və rəngarəng musiqi nömrələri ilə zəngin konsert proqramı təqdim olundu.

## Lerik rayon sakinlərinə Novruz bayramı təbriki

Hörmətli leriklilər, əziz həmvətənlər!

Sizi min illərdir ki, ölkəmizdə və bütün türk dünyasında böyük sevinc hissi ilə qeyd edilən, xalqımızın özünəməxsus adət-ənənələrini, qədim tarixini özündə yaşadan, bolluq, bərəkət, birlik və həmrəylik rəmzi olan Novruz bayramı münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə xöşbəxtlik, firavanlıq və can sağlığı arzulayıram. Qoy yurdumuza qədəm qoyan Novruzun gəlişi ilə təzələnən ilimiz hər birinizin evinə əmin-amanlıq və xoşbəxtlik ili kimi daxil olsun, hər bir ailəyə ruzi-bərəkət gətirsin!

Bolluq, bərəkət, birlik və həmrəylik rəmzi olan Novruz bayramını artıq iki ildir ki, hər il Novruzda arzu etdiyimiz ülvi bir hiss-qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun qazandığı Zəfər hissi ilə qarşılamağımızdan qürur duyuruq.

Son illərdə rayonumuzun sosial-iqtisadi və mədəni həyatında infrastruktur layihələrin icrası, tikinti işlərinin davam etdirilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı cənab Prezidentin imzaladığı sərəncamlar Lerikin inkişafına göstərilən diqqətin bariz nümunəsidir. İnanırıq ki, ölkəmizin gündən-günə güclənən iqtisadi qüdrəti, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların inkişafına göstərdiyi qayğı və diqqət nəticəsində qarşıdakı illərdə də rayon mərkəzi ilə yanaşı, kəndlərimiz daha da gözəlləşəcək, xalqımız firavan və xoşbəxt yaşayacaqdır.

**Əziz həmvətənlər!**

Bir daha hər birinizi xalqımızın ən gözəl bayramı olan Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza sağlam həyat, xoş əhval-ruhiyyə, vətənimiz Azərbaycanın və rayonumuzun tərəqqisi naminə işlərinizdə uğurlar arzulayıram.

Bahar bayramınız mübarək!

***Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev,***

## Monidigah kəndində vətəndaşlarla növbəti səyyar qəbul keçirildi



Martın 30-da Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev tərəfindən növbəti səyyar qəbul rayonun Monidigah kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirildi.

Qəbulda rayonun hüquq mühafizə orqanlarının, xidmət təşkilatları və aidiyyəti idarə rəhbərləri iştirak edirdi.

Qəbulda C.Baxşıyev cənab Prezident tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlardan, o cümlədən minimum əmək haqları və pensiyaların, tələbələrin təqaüdlərinin, müharibə veteranlarına, şəhid ailələrinə verilən müavinətlərin əhəmiyyətli dərəcədə artırılmasından və eyni zamanda müxtəlif dövlət təşkilatlarında çalışan işçilərin əmək haqlarının artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat verdi. Rayonda və Mondigah ərazisində son illərdə həyata keçirilən tikinti-quruculuq, abadlıq işləri, açılan yeni iş yerləri barədə məlumat verdi, qarşıda duran vəzifələri qeyd etdi.

Qəbulda kənd sakinlərinin təklifləri və problemləri dinlənildi və onları narahat edən bəzi məsələlər yerindəcə öz həllini tapdı. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin isə qanunvericiliyə uyğun, operativ həlli üçün təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verildi. Həlli mərkəzi icra hakimiyyəti orqanlarından asılı olan məsələlərlə bağlı qeydlər aparıldı.

Qəbul zamanı vətəndaşlar rayonda, o cümlədən Monidigah ərazisində aparılan abadlıq və yenidənqurma işlərindən razılığını ifadə edərək, onların müraciətlərinə xüsusi diqqət göstərildiyinə görə ölkə başçısına və rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.

* * *

Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyevin sədrliyi ilə rayonun Ambu, Piran, Günəşli kənd ərazilərində səyyar qəbullar keçirilmişdir. Görüşlərdə vətəndaşlar bir sıra həlli vacib olan məsələlər qaldırmışlar. Şikayətlərin bir qismi yerindəcə həll olunmuş, digər problemlərin həlli üçün müvafiq qurumlara tapşırıqlar verilmişdir.

## Şəhid məzarları ziyarət olundu



Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdikləri sosial siyasətin tələblərinə uyğun olaraq Lerik rayonunda da şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, müharibə veteranları və digər həssas əhali qrupu lazımi qayğı ilə əhatə olunur, şəhidlərimizin xatirəsi daim əziz tutulur, onların adı əbədiləşdirilir. Rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinə və qazilərə mütəmadi olaraq xüsusi diqqət və qayğı göstərilir.

Novruz bayramı ərəfəsində xalqımızın adət və ənənələrinə uyğun olaraq Lerik rayonundal Qarabağ və Vətən müharibəsində canlarından keçən şəhid övladlarının məzarları rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti təşkilat rəhbərləri, şəhid ailələri və rayon ictimaiyyətinin nümayəndələri tərəfindən ziyarət olunaraq xatirlərinə sonsuz ehtiramlarını bildirdilər, məzarları önünə gül dəstələri düzərək ruhlarına dualar oxudular.

Həmçinin, bayram münasibəti ilə rayon icra hakimiyyətinin əməkdaşları şəhid ailələrini evlərində ziyarət etdi, onalrın problemlərini dinləyərək bayram sovqatlarını təqdim etdilər.

Ümumilikdə bayram münasibəti ilə Lerik Rayon İcra Hakimiyyəti tərəfindən 570 bayram sovqatı şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına və imkansız ailələrə paylanıldı.

## Lerik Rayon İcra Hakimiyyəti başçısının 2022-ci ilin aprel ayında yerlərdə keçirəcəyi səyyar qəbullara dair CƏDVƏL

| Sıra №-si | Qəbulun keçirilləcəyi yer | Qəbulu təşkil edən şöbə | Qəbulun keçirilləcəyi tarix | Qeyd |
|---|---|---|---|---|
| 1. | Əvilə kəndi, Əvilə kənd ümumi orta məktəbinin akt zalı | Ərazi İd. orq. ilə İş şöbəsi | 07.04.2022 | |
| 2. | Kələxan kəndi, Kələxan kənd ƏİN binası | Ərazi İd. orq. ilə İş şöbəsi | 14.04.2022 | |
| 3. | Nüvədi kəndi, Nüvədi kənd ƏİN binası | Ərazi İd. orq. ilə İş şöbəsi | 21.04.2022 | |
| 4. | Əllabad kəndi, Əllabad kənd ƏİN binası | Ərazi İd. orq. ilə İş şöbəsi | 28.04.2022 | |

*"Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq."*

***İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti***

## Yeni Azərbaycan Partiyasının VII qurultayından bir il ötmüşdür

Yeni Azərbaycan Partiyasının 2021-ci il 5 mart tarixində keçirilmiş VII qurultayda YAP-ın sədri, Prezident İlham Əliyev çıxış edərək bir sıra əsas məsələlərə toxunmuşdur. O, ölkənin iqtidar partiyasının inkişaf tarixinin ən mühüm mərhələlərini qeyd etmiş və Partiyanın perspektiv xarakterli strateji hədəflərini vurğulamışdır. Bu mənada YAP-ın VII qurultayı partiyanın tarixində yeni inkişaf mərhələsinin başlanğıcı kimi dəyərləndirilməlidir;

Ulu Öndər Heydər Əliyev ətrafında yaradılmış Yeni Azərbaycan Partiyanın fəaliyyəti ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etmişdir. Ulu Öndərin öz xalqına olan sadiqliyi və ölkənin gələcəyi ilə bağlı olan mütərəqqi baxışları xalqı onun ətrafında birləşdirdi. Ulu Öndər Heydər Əliyevin yorulmaz siyasi fəaliyyəti ona xalqın sevgi və ehtiramını qazandırmışdır. Ulu Öndərin siyasi iradəsi və peşəkarlığı müstəqilliyin qorunması və dönməzliyini təmin etmişdi.

Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul olunmuş qərarlar partiyanın fəaliyyətində keyfiyyət etibarı ilə əhəmiyyətli dəyişikliklərə səbəb oldu.

YAP-ın VII qurultayının keçirilməsi Prezident İlham Əliyevin islahatlar siyasətinin davamına çevrildi. VII qurultayda qəbul olunmuş qərarlar hakim partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlanğıcını nümayiş etdirdi.

Milli maraqların qorunması YAP-ın fəaliyyət strategiyasının mütləq prioritetidir. Ölkənin vətənpərvər, intellektual ehtiyatı olan yeni gənc nəslin nümayəndələrini özündə birləşdirən siyasi partiya statusunu inamla qoruyur.



*Məqaləyə sözönü*

*Xan qızı Xurşidbanu Natəvan haqqında çox deyilib, çox yazılıb. Yenə də yazılacaq və deyiləcək. Kişi qeyrətli, Vətən sevdalı xanım neçə-neçə romana, poemaya, dastana sığmayan mənalı, cəfakeş, bir qədər də qəmli, möhnətli ömür yaşayıb. Təkcə şəxsi ömür yaşamayıb, həm də əqli və maddi imkanları ilə yaxın yurddaşlarının, uzaq soydaşlarının yaxşı yaşamalarına yardımçı olub. Fitri istedadı ilə milli ədəbiyyat-incəsənət-mədəniyyət sarayımızın ayrıca bir hücrəsini yazıb-yaradıb. Bu ziyalı, mesenat xanım öz şəxsində sivilliyimiz, tolerantlığı, gender bərabərliyi ilə bağlı elə təəssürat yaradıb ki, bunlar haqda nə qədər desək də azdır. 65 il yaşasa da o mənən sağdır, heç vaxt unudulmur.*

*Sən demə, şairənin məşhur at ilxısı da varmış. At ilxısındakı atlar sərgilərdə mükafatlara layiq görülmüşdür. Mərhum jurnalist dostum Gülməmməd Məmmədzadənin 30 mart 1990-cı il tarixli sayında dərc etdirdiyi "Şairənin... at ilxısı" adlı məqaləsini oxusanız maraqlı olar.*

*"Şuşa ili"*

# Şairənin... at ilxısı

Qarabağ atı haqqında çox yazılmış və çox deyilmişdir. Lakin məqsədimiz Qarabağ atının şöhrəti barədə geniş söhbət açmaq deyil, Azərbaycanın məşhur şairəsi Xurşidbanu Natəvanın at ilxısı barədə bir neçə faktı nəzərinizə çatdırmaqdır.

Yurdumuzun at cinsləri içərisində geniş şöhrət tapan Qarabağ atının qədim tarixi vardır. "Strabon qeyd edir ki, Orxistena (yəni indiki Qarabağ - G.M.) "daha çox sayda atlılar çıxarır". Ola bilsin ki, bu deyilən Qarabağ zonasında sonralar Qarabağ atları adlanan at cinsinin mövcud olduğunu ehtimal etməyə imkan verən ən erkən dəlildir" (İqrar Əliyev). Qarabağ atı əsrlər boyu sevilmiş və öyülmüşdür. XIX əsrin at mütəxəssisi D.Dubenski yazırdı: "Zaqafqaziyada bir sıra at cinsləri olsa da, əslində o atların hamısı Qarabağ atının törəməsidir". "Qarabağ atı" kitabında isə qeyd edilmişdir ki, keçən əsrin ortalarından bəri Qarabağ cinsindən olan atlar 1866, 1869, 1872-ci illərdə Moskvada Ümumrusiya at sərgilərində, habelə 1867-ci ildə Fransada Ümumdünya at sərgisində münsiflər heyəti tərəfindən bəyənilmişdir. Hətta görkəmli şairlər də bu atlara şeir və poemalar həsr etmişlər. Böyük rus şairi M.J.Lermontov "Demon" əsərində Qarabağ atını belə tərifləyir:

Bu at Qarabağın yetirməsidir,
Cins bir düldür, onun yoxdur qiyməti.

Bir sıra arxiv sənədlərində və kitablarından göstərilir ki, Natəvanın at zavodu olmuşdur. Bu zavodun atları Ümumrusiya və dünya kənd təsərrüfatı sərgilərində dəfələrlə yüksək mükafat almışdır. Onun zavodunda saxlanılan "Sərtib", "Meymun" və "Əlyetməz" kimi məşhir atlar mükafat almışlar. Mənbələrin birində güstərilir ki, Knyagina Usmiyeva (yəni Natəvan - G.M.) "Əlyetməz" adlı sarıyal atı üçün medal almışdır.

Qarabağda ilk atçılıq zavodunu (1826-cı ildə) Natəvanın atası, general-mayor Mehdiqulu xan saldırmışdır. Bundan sonra bu zavodda bəslənilən Qarabağ atının şöhrəti dünyaya yayılmışdır. Onun vəfatından sonra yeganə qızı Natəvan atasının atçılıq təsərrüfatını inkişaf etdirərək, daha da şöhrətəndirmişdir. Təsadüfi deyil ki, Q.B.Zakir Məmməd bəy Aşiqə yazdığı şeirində Natəvan xanımdan bir yaxşı at istəməsini xatırlatmışdır.

1867-ci ildə Parisdə keçirilən beynəlxalq sərgidə Natəvanın ilxısında bəslənilən "Əlyetməz" adlı köhlən qızıl medal və fəxri fərmana, "Xan" adlı kəhər isə gümüş medala layiq görülmüşdür. 1869-cu ildə Moskvada keçirilmiş Ümumrusiya at sərgisində "Meymun" adlı Qarabağ kəhəri sərginin gümüş medalına və pul mükafatına layiq görülmüşdür. Həmin sərgidə "Toxmaq" adlı at bürünc medal, "Səlbinaz" adlı at fərqlənmə diplomu almışdı. Şairənin at ilxısında bəslənmiş "Bayram" adlı at isə 1872-ci ildə Moskvada keçirilən sərgidə pul mükafatına layiq görülmüşdür.

Bu ənənə Ağdam atçılıq zavodunda sonda da davam etdirilmişdi. Natəvanın at zavodunda bəslənən atların şöhrəti nəsildən-nəslə keçmişdir. 1956-cı ildə Böyük Britaniya kraliçası Yelizavetaya Ağdam atçılıq zavodundan bağışlanmış "Zaman" adlı at dünya mətbuatının yazdığına görə bütün qitələrin marağına səbəb olmuşdur.

Qarabağ atı 1950-1972-ci illərdə Bakı cıdır meydanında 180 mükafat almışdır. Hazırda Ağdam atçılıq zavodunda 300-ə qədər Qarabağ atı saxlanılır. Burada bəslənilən atların sorağı indi də dünyanın hər yerindən gəlir.

***Gülməmməd Məmmədzadə, 1990-cı il, "Azərbaycan" qəzeti***

# Şuşalı Zabul Qasımın yanğılı səsi



***Görkəmli xanəndə Abdullayev Qasım İbrahim oğlu 1873-cü ildə Şuşada anadan olmuşdur. Müasirlərinin yazdığına görə, orta boylu, xoşsifət bir adam olan Qasım avropasayağı şux geyinərdi. Onun çox yanğılı səsi vardı. Qasım Abdullayev məclis xanəndəsi olsa da Şuşanın səfalı yerləri sayılan "Səkili bulaq"da, "Şırşır"da və "Şəmilin bağı"nda, zəhmətkeş kənd adamlarının ən çox toplandığı yerlərdə tez-tez çıxış edərdi.***

Görkəmli xanəndə İslam Abdullayev öz xatirələrində Qasım haqqında belə bir əhvalat söyləyirmiş: "1913-cü ilin səfalı yay günlərindən birində "İsa bulağı"nda bir neçə məclis qurulmuşdu. Bu məclislərə Qarabağın bütün adlı-sanlı xanəndələri dəvət edilmişdi. Hər məclisdə bir xanəndə vardı. Məclislərin birindən Qasımın adamı valeh edən xoş səsi eşidildi. O, "Zabul" oxuyurdu. Qasımın səsini eşidən bütün xanəndələr, hətta rəhmətlik Cabbar Qaryağdı oğlu belə qavalı yerə qoyub Qasımın vurduğu şirin xalları, gözəl guşələri maraqla dinləyirdi. Həmin vaxt, mən Şuşa taciri Hacı Bəşirin məclisində "Rast" oxuyan xanəndə Xanlıq Şükürə qulaq asırdım...".

Həmin məclisdə Hacı Bəşir "palazqulaq" bir yüzlük çıxarıb Şükürün alnına yapışdırıb, ondan acığa bir "Zabul" oxumağı xahiş etsə də, Xanlıq Şükür: "Ağa, Qasım olan məclisdə mən "Zabul" oxumaram" deyə cavab vermişdi.

Məşədi Qasım "Zabul" muğamını çox gözəl ifa edirdi. Onun oxuduğu "Zabul" son dərəcə lirik mahiyyət daşımaqla, həddindən artıq gözəl guşə və şirin xalları ilə bütün başqa xanəndələrin oxuduqları "Zabul"dan fərqlənirdi. Buna görə də Qasımdan sonra gələn xanəndələr, xüsusilə Musa Şuşinski, Bülbül, Xan Şuşinski, Əli Cavad oğlu və Zülfü Adıgözəlov kimi peşəkar xanəndələr, "Zabul" oxumaqda, məhz Qasım Abdullayevi təqlid edirdilər...".



XX əsrin əvvəllərində Zabul Qasım Bakıda bir neçə dəfə konsert vermiş və tamaşaçıların sonsuz rəğbətini qazanmışdır. Zabul Qasım ilk dəfə Bakı tamaşaçıları qarşısında 1903-cü ilin yanvar ayının 27-də H.Z.Tağıyevin teatr binasında verilən "Şərq konserti"ndə Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər və Seyid Mirbabayevlə birlikdə çıxış etmişdir. Bu konsertdə Qasım "Zabul-segah"ı böyük bir məharətlə ifa etmişdi. "Kaspi" qəzeti "Şərq konserti" və onun ifaçıları haqqında çap etdiyi məqalələrin birində Qasımın xanəndəlik fəaliyyətini yüksək qiymətləndirmişdir. Qəzetdə deyilirdi ki, "Konsertin birinci şöbəsində, bir neçə vaxt bundan əvvəl Şuşadan gəlmiş müğənni Qasım çıxış etdi. O, gözəl səsi ilə "Segah" muğamını olduqca şirin oxudu..."

Zabul Qasım "Sport-Rekord" şirkətinin dəvəti ilə 1914-cü ildə Tiflis şəhərinə gedərək səsini vala yazdırmışdır. Həmin vaxt Zabul Qasım "Zabul-segah", "Bayatı-Şiraz", "Humayun", "Şur", "Mahur-Hindi" və bir neçə təsnif oxumuşdur.

Görkəmli xanəndə ömrünün son illərində Şuşa musiqi məktəbində muğamatdan dərs demiş, incəsənət işçilərinin respublika həmkarlar ittifaqı şurasının sədri vəzifəsində çalışmışdır.

Zabul Qasım 1927-ci ildə Şuşada vəfat etmişdir.

Zabul Qasımın ölüm xəbərini eşidən Cabbar Qaryağdı oğlu demişdir: "Mən Qasımın ölümünə ağlamıram, "Zabul"un ölümünə ağlayıram: Qasım ölmədi, "Zabul" öldü"!

***Bilal Quliyev, E.Ruhullayev adına Lerik rayon Uşaq İncəsənət məktəbinin direktoru***

# Şuşa Qarabağın zümrüd tacıdır

***Azərbaycanın Qarabağ regionu dünyanın ən qədim insan məskənlərindən sayılan Azıx, Tağlar düşərgələri ilə məşhurdur. Bu yer Şellidən əvvəlki mədəniyyətin - Quruçay mədəniyyətinin tarixini özündə əks etdirən tarixi coğrafi ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay (1 milyon 200 min ildən artıq tarixə malikdir) mədəniyyətindən sonrakı Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətinin davamçılarının yaşayış məskənidir.***

Azərbaycanın dövlətçilik tarixi qədər də onun bölgələrindən biri olan Qarabağ böyük tarixi ənənəyə malikdir. Antik dövrdə Qarabağ regionu Albaniyanın tərkibində ən iri vilayətləri əhatə etmişdir. Tədqiqatlar göstərir ki, Qarabağ regionu antik dövrdə alban arşakiləri sülaləsinin hakimiyyəti altında olmuşdur.

Oxuculara təqdim etdiyimiz bu yazıda Qarabağın incisi - zümrüd tacı Şuşa şəhərinin təkrarsız gözəlliklərindən, memarlıq və incəsənət abidələrindən, görkəmli şəxsiyyətlərindən, erməni xəyanətindən söhbət açacağıq.

Qarabağ Vətənimizin zirvəsində 260 ildən çoxdur ki, yaşayır. Qarabağın paytaxtı olmuş bu şəhərin bünüvrəsini böyükk zəka və qüdrət sahibi olan Pənahalı xan Cavanşir öz əlləri ilə qoymuş və şəhər səviyyəsinə çatdırmışdır. Qarabağa, nə də onun zümrüd tacı sayılan Şuşaya azərbaycanlılardan sarayı, kimlərinsə şərik çıxmalarına mənəvi hüquqları yoxdur. Bu həqiqəti dünyanın ən ağıllı və savadlı insanları da yaxşı dərk edirlər. Şuşanı "Qafqazın konservatoriyası" və "Qafqazın İtaliyası" kimi də xarakterizə edirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına əsasən, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə,12 nüsxəbənd, 16 nəqqaş, 19 xəttat, 5 astronom, 18 memar, 42-dən çox müəllim və digər sənət sahibləri fəaliyyət göstərmişdir. Şuşada Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Segah İslam, Zabil Qasım, Seyid Şuşinski, Xan Şuşinski, Bülbül, Üzeyir Hacıbəyov, Zülfi Adıgözəlov, Rəşid Behbudov, Qədir Rüstəmov, digər məşhur şair və yazıçıların Vətəni olmuşdur. Burada "Məclisi-Üns", "Məclisi-fəramuşan" ədəbi mühiti fəaliyyət göstərmişdir.

Şuşanın yerləşdiyi ərazi 350 hektar olmuşdur. Bu şəhər dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə yerləşir. Şəhərin cənub tərəfi düzənlikdir və "Cıdır düzü" adlanır. Daşaltı çayı, Qar-qar çayına qovuşan Şırlan çayı gücəgündüz Şuşaya layla deyir. Şuşa şəhəri havasının təmizliyi və müalicəvi əhəmiyyəti baxımından Azərbaycanın səfalı kurort-istirahət mərkəzlərindən hesab olunur. Şəhərdə 26 dini-tarixi, 56 tarixi memarlıq abidələr, 9 ziyarətgah mövcud olmuşdur.

Tarixi abidələr-istər milli, istər dini-millətin siması, Vətənin rəmzidir. Qarabağın Azərbaycan torpağı olduğu həm də onun tarixi-dini və mədəni abidələri ilə sübut olunur.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Xilaskar Prezident İlham Əliyev Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində ardıcıl səylər apardığı qətiyyətli mövqe tutdu. Çünki işğalçı Ermənistanın mənfi davranışı, həmsədrlərin dişsizliyi problemin hərbi həll variantını aktuallaşdırdı. Sentyabrın 27-də səhər tezdən başlayan əks-hücum əməliyyatı düşməni şoka saldı. Erməni ordusunun məğlubedilməzliyi, "Ohanyan səddinin keçilməzliyi" barədə miflər yonca çıxdı. Azərbaycan ordusu hər saat, hər gün irəliləyərək yeni-yeni ərazilərimizi işğaldan azad etdi. Madagiz və Murov əməliyyatları Kəlbəcərə yol açdı və nəhayət noyabrın 8-də Qafqazın mirvarisi olan qədim Şuşada Azərbaycan bayrağı dalğalandı. Şuşanın alınması cənab Prezidentimizin təbirincə desək, Ermənistan ordusunun belini qıraraq, onu diz çökdürərək kapitulyasiya aktına imza etməyə məcbur etdi.

Bütün çətinliklərə baxmayaraq ölkəmiz Vətən müharibəsindən sonra Qarabağda bərpa-quruculuq başladı. Şuşada yeni məscidlərin təməli qoyuldu. Şuşada Vaqifin məqbərəsi, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və saatlı məscidləri bərpa olundu. Hazırda Şuşaya doğru uzanan və uzunluğu 81,6 kilometr olan ikinci avtomovil yolu da inşa olunur.

Ermənilər işğal etdikləri ərazilərdəki qədim Azərbaycan abidələrini məhv etmiş, yerli toponimləri planlı şəkildə dəyişdirmişlər. Amma tarix yazısını dəyişdirə bilməmişlər. Çünki gerçək tarix yalnız həqiqətdən keçir, həqiqət isə birdir: Qarabağ, Şuşa Azərbaycanın tarixi torpağı, ayrılmaz tərkib hissəsidir.

- Qarabağ Azərbaycandır!



***Arzuman Cəfərov, Malik Bağışov adına Lerik şəhər 3 saylı tam orta məktəbinin müəllimi***

# Amilin qəhrəmanlığı unudulmur



Qazaxın Quşçu-Ayrım kəndinə yaxın postlardan birinin cəsur komandiri Amil Novruz oğlu Əliyev idi. O, 2012-ci iyun ayında gecə əsgərlərlə birlikdə postda keşik çəkirdi. Pisquda duran düşmən həmin postu şiddətli atəşə tutur, postu tutmaq istəyir. Qeyri-bərabər döyüşdə Amil Əliyev 4 nəfər əsgərlə birlirdə şəhid olur, yalnız bir yaralı əsgər sağ qalır. Azğın düşmən isə postun ala bilmir, öz mövqelərinə çəkilir.

Amil əqidəsindən, yolundan dönmür, haqqımız, torpağımız naminə canını fəda edir.

Belə oğullar yetirən Vətən bölünməz, şəhidlər ölməz!

Şəhidin atası Novruz Əliyev deyir:

- Oğlum Amil Vətən uğrunda şəhid oldu. Ondan bir yadigarı qaldı: nəvəm Yusif. Yusif deyir ki, mən də atam kimi cəsur və qorxmaz olacağam, Vətən yolunda, torpağımız naminə fədakarlıq göstərəcəyəm.

# Xanlar Həmid: Avestaşünas şair



Xanlar Həmid! Bu ad artıq Azərbaycan oxucusuna və sosial şəbəkə istifadəçilərinə kifayət qədər yaxşı tanışdır.

Ucqar bir rayonda, hətta rayon mərkəzi deyil, kənddə yaşayan bu şəxs çağdaş poeziyamızın tanınmış simalarından biridir. Bölgə sərhədini çoxdan aşan şair Xanlar Həmid və onun kimi insanlar sübut edirlər ki, xalqa, vətənə xidmət etmək və tanınmaq üçün təkcə paytaxt və mərkəzi şəhərlər deyil, elə kənddə də yaşamaq kifayət edər. Təki insanda savad və istək ola.

Xanlar Həmidlə qiyabi tanışlığım 27 il əvvələ təsadüf edir. Onun "Aydınlıq" qəzetinin 24 noyabr və 01 dekabr (davamı) 1992-ci il tarixli saylarında dərc olunmuş "Talış dağlarında Babəkin izləri" məqaləsi məhz qiyabi tanışlığımıza "körpü" salmışdır. Şübhəsiz tarix fakültəsinin tələbəsi olaraq həmin məqaləni böyük maraqla oxuyub, müəyyən cümlələrin altında xətt çəkəndən sonra onu kəsib "şəxsi arxivimə" – qovluğa qoydum. Qəzetdən kəsib götürdüyüm həmin məqalə indi də arxivimin qiymətli nümunələrindən biri kimi durur.

Sonralar da mətbuatda şeir və məqalələrini oxuyur, sosial şəbəkədə paylaşımlarını izləyirdim. Daha geniş imkanlara malik olan sosial media virtual tanışlığımıza gətirib çıxartdı. Virtual tanışlığımız bir il öncə Lənkəran şəhərində şair Ağamir Cavadın vasitəçiliyi ilə şəxsi tanışlığımıza, dostluğumuza gətirib çıxartdı. "Qan qanı çəkir" ifadəsi görünür heç də əbəs yerə işlədilməmişdir. Şəxsiyyət və yaradıcılığına hörmət bəslədiyim şair Xanlar Həmid deməmiş mənim dayımdır. Anam Şirin Kazım qızı Şükürova (Süleymanova) 1948-ci ildə Lənkəran rayonunun Havzava kəndində doğulsa da, əslən Lerik rayonunun Çayrud kəndindəndir və atası Kazım Adi oğlu Süleymanov 1893-cü ildə Çayrud kəndində doğulmuş, 1947-ci ildə Havzava kəndinə köçmüşdür. Məhz buna görə də Xanlar Həmidə dayı deyə müraciət edirəm.

Xanlar Hacı Ağamirzə oğlu Həmidov (Xanlar Həmid) 1954-cü il iyunun 25-də Lerik rayonunun Çayrud kəndində anadan olmuşdur. 1971-ci ildə Çayrud kənd tam orta məktəbini, 1980-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. 1980-2007-ci illərdə Lerik rayonunun müxtəlif məktəblərində müəllim, o cümlədən 2005-2007-ci illərdə Çayrud kənd tam orta məktəbinin direktoru işləmişdir. 2007-ci ildən Lerik Rayon İcra Hakimiyyəti Başçısının 6 kəndi əhatə edən Çayrud kənd inzibati ərazi dairəsi üzrə nümayəndə olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 9 kitab və çoxlu sayda şeir, məqalənin müəllifidir. Mütəmadi olaraq dövrü mətbuatda və sosial mediada şeirləri dərc olunur və paylaşımlar edir. Cənub ARB TV və mərkəzi televiziya kanallarında çıxışları olmuşdur.

Xanlar Həmid 2018-ci ildə Zərdüştiliyin (Atəşpərəstliyin) müqəddəs kitabı olan "Avesta"nı (Yəşt hissəsini) ilk dəfə rus dilindən Azərbaycan dilinə poetik tərcümə etməklə adını Azərbaycan ədəbiyyatına və tarixinə əbədi olaraq həkk etdirmişdir. 27 aprel 2018-ci il tarixində Lənkəran Dövlət Universitetində "Avesta" kitabının təqdimatı keçirilmişdir. Dəvətlilər və çıxışçılar sırasında olduğum təqdimatda respublikamızın tanınmış elm xadimləri, şairlər, yazıçılar, tədqiqatçılar çıxış edərək müəllif və kitab haqqında yüksək fikirlər söyləmişlər.

Avestaşünas şair Xanlar Həmidin




1996-cı ildə 40, 2004-cü ildə isə 50 illiyi Lerik rayon Mədəniyyət Mərkəzində rayon səviyyəsində qeyd olunmuşdur. Biləndə ki, iyunun 25-də dayımın 65 yaşı tamam olur, fikirlərimi yazıb hörmətli oxucularla bölüşmək qərarına gəldim. Düşünürəm ki, bu həm də Xanlar Həmidin 65 illiyinə bir təbrik olacaqdır.

Çox hörmətli Xanlar müəllim, bir oxucu və bacı oğlu kimi sizi doğum günü münasibəti ilə təbrik edir, sizə can sağlığı, Lerik uzunömürlülüyü, yaradıcılığınızda, şəxsi həyatınızda uğurlar arzulayıram.

65 yaşın mübarək, Xanlar Həmid!

***İldırım ŞÜKÜRZADƏ, tədqiqatçı-tarixçi***

# Kəla türbə



Talış dağlarının ovcunda qərar tutmuş Lerik rayonunun 1048 kvadratkilometr ərazisində 150-dən artıq tarixi, memarlıq, təbiət abidəsi qeydə alınmışdır. Qədim tarixə malik olan, orijinallığı ilə fərqlənən Kəla türbəni XIV əsrə aid edirlər. Burada dəfn olunan seyidin məzarı yerli əhali tərəfindən indi də ziyarət olunur.

Kəla türbə Böyük Orand kəndinin üstündəki təpəlikdə yerləşir. Buradan ətraf apaydın görünür. Mamır basmış daşlar, ağaclar uzaq qərinələrdən soraq verir. Türbədə iki armud ağacı bitmişdir. Bir qədər aşağıda qarağat ağacları diqqəti cəlb edir.

Türbənin qarşısında göz yaşı tək duru, buz bulaqların suyu axır. Kəndin sakinləri dedilər ki, qabaqlar buradan yeddi çeşmə axırdı. Rayondan gələn bir nəfər bulaqların qarşısına yol çəkdirmək istəyirdir. Yol yarımçıq çəkildi, çeşmələrdən dördü məcrasını itirdi. Lakin üçündən gur su axır.

Kəla tğrbədə yerə basdırılmış başdaşı və mərtəbəli sənduqə diqqəti cəlb edir. Başdaşının uzunluğu 2 metr olar. Həm də adi başdaşı deyil. Üzərində oymalı naxışlar - həndəsi nəbati, günbəz rəsmi həkk edilib. Belə iri başdaşına nadir hallarda rast gəlmək olar. Sənduqənin səthindəki naxışlar da aydın görünür.

Qoç heykəlinin (totem) boyun hissəsi sındırılıb. Xəstələr bu fiqurun altından şəfa tapmaq ümidi ilə keçirlər.

Türbə sonradan uzunluğu 10 metr, eni 5 metr, hündürlüyü 1.5 metr ölçülərində hasara alınmışdır. "Divarların müxtəlif tərəflərinə beş ədəd başdaşı hörülmüşdür. Görünür, həmin naxışlı başdaşlarını türbənin ərazisindən çıxarıblar. Qədim tarixdən xəbər verən hər daş, saxsı parçası necə var, elə də qalmalıdır. Bu müqəddəs daşlara toxunmaq, onları sındırmaq günahdır, ulularımızın ruhuna - yurdumuzun tarixinə qəsddir.

Üstü şiferli türbəni Böyük Orandın camaatı tikib. Türbə əsas qəbirdən və eyvandan ibarətdir. Hündürlüyü 2.5 metr, eni də bir o qədər olar. Türbənin çox primitiv üsulla tikilməsi təəssüf doğurur, təmir olunmalıdır. Göstərici lövhəsi də yoxdur ki, tarixi, dövlət tərəfindən qorunduğu bəlli olsun. Yaxşı oları ki, mal-qaradan, qoyun-quzudan qorumaq məqsədilə türbənin ərazisi dəmir topla hasara alınsın, digər abadlaşdırma işləri həyata keçirilsin.

Qaldı ki, Kəla türbənin adı haqqında. Bizə elə gəlir ki, Kəla türbə - yəni iri türbə, baş türbə, güclü türbə deməkdir. Böyük türbə üçün böyük işlər görmək böyüklərin işidir.

***5 fevral 1992-ci il***

# Yurdumuza Novruz gəlib...



Novruz bayramı - yeni günün gəlişi yurdumuza, elimizə, obamıza xeyir-bərəkəti, yeni ruh, yeni düşüncə gətirmişdir. Bayram gəlişilə insanlara sevinc, şadlıq, əmin-amanlıq, şadlıq bəxş etmişdir. Müsəlman dünyasında xüsusi yer tutan Novruz bayramı Lerik şəhərində, kəndlərində yüksək əhval-ruhiyyə ilə qeyd edilmişdir.

Lerikə giriş qapısı olan Piran kəndindəki uşaq bağçasında bu ilki Novruz bayramına özəl bir hazırlıq görülmüş, ictimaiyyətin nümayəndələri Novruz şənliyinə dəvət edilmişdi. Bayram şamları yandırılmış, xonçalar bəzədilmiş, ədəbi-bədii kompozisiyanı canlandıran, milli geyimdə olan uşaqlar bacarıq və istedadlarını nümayiş etdirdilər, yüz illiklərdən bəri davam edən Novruz ənənələrinə sadiq olduqlarını göstərdilər.



Bayram şənliyində giriş nitqi ilə bağçanın müdiri Sevər Bayramova çıxış etdi, xalqımıza, tədbir iştirakçılarına xoş arzu və istəklərini çatdırdı, bayram təbriklərini söylədi.

Sevər xanım qeyd elədi ki, Azərbaycan Ordusu işğala məruz qalmış ərazilərimizi azad etmiş, Vətənin tamlığı üçün şəhidlər vermişdir. Bu gün şəhidlərimizin ruhu bizimlədir. Ölkəmizdə qəhrəman əsgərlərimizin xatirəsi əziz tutulur, onların göstərdiyi fədakarlıq unudulmur. Bayram tədbirlərində iştirak edən övladlarımız igis əsgərlərimizi tərənnüm edən şeirlər, mahnılar söylədilər. Uşaqlar söz verdilər ki, böyüdükdən sonra bizə azadlıq gətirənlərin yolunu davam etdirəcək, Vətənə layiq böyüyəcəyik...





Sevər Bayramova uşaqlara dövlət qayğısını, qruplardakı uşaqlara göstərilən diqqət və qayğını xüsusi olaraq vurğuladı. Çox çəkmədi ki, bayramın rəmzi olan Keçəl və Kosa duzlu-məzəli deyimləri, şən zarafatları, oyunları ilə uşaqlara bir dünya sevinc, bolluca gülüş bəxş etədilər. Gənc fidanlar şeir söylədilər, rəqs etdilər, yumurlta toqquşdurdular. Keçəlin zarafatlarına qarşılıq verdilər.

Lerik rayon Təhsil Şöbəsinin müdiri Zöhrab Salayev, Piran kənd ərazi icra nümayəndəsi Rizvan Əsədov, TİAHİ-nin sədri Cəlil Abbasov, valideynlər adından 30 ilə yaxın uşaq bağçasına rəhbərlik etmiş Nəzakət İbrahimova tədbirdə iştirak edənlərə bayram təbriklərini çatdırdılar.

Piran kənd uşaq bağçasında "Yurdumuza Novruz gəlir" adlı əbədi-bədii kompozisiyanın hazırlanmasında Piran kənd mədəniyyət evinin işçilərindən Məhərrəm Aslanov və Namiq Ağayev, bağçanın tərbiyəçi müəllimlərindən Gülbahar Rəhimova, Sevda Bayramova, Pərvanə Ağamirzadə, Mahirə Surətova fəallıq, təşkilatçılıq nümayiş etdirdilər.

Piran kənd uşaq bağçasında Novruz şənliyi başa çatsa da ürəklərdə, hafizələrdə davam elədi...

***"Lerik" qəzeti***

# Orucluğun fəziləti

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Orucluq hicrinin ikinci ilində Məhəmməd peyğəmbər (s.) tərəfindən Mədinədə bu məqsəd üçün Ramazan ayı təyin olandan öz tarixini başlayır. Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran hədiyyə edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə "leylət al-Qadr" - qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqda belə yazılır: "Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!

Ramazan ayının gecələrindən birində müsəlmanların müqəddəs kitabı Qurani-Kərim nazil olub. Həmin gecə "qədr" və ya "əhya" gecəsi adlanır. Qədr gecəsinin konkret hansı gün olduğu bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər var. Amma ümumi fikir belədir ki, qədr gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir.

Rəvayətlərin birində deyilir:

"Bir yaşlı kişi Peyğəmbərə (s) söyləyir: Uzaq yoldan gəlib məsciddə oturmaq mənə çətindir, əgər Qədr gecəsinin hansı gecə olduğunu bilsəm, həmin gecə məscidə gələrəm.

Peyğəmbər onun qulağına nəsə deyir və həmin kişi hər ramazan ayının 23-cü gecəsi məscidə gəlir".

İslamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-ci gecələrindən biridir. Qurani-Kərimdə "Qədr surəsi" vardır. Bu surədə qədr gecəsi haqda belə yazılır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aylardan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".

Orucluq ayında günün işıqlı vaxtı yemək, içmək, siqaret çəkmək, ər-arvad borcunu yerinə yetirmək və s. olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, cəbhədə vuruşanlar, uzaq yola çıxanlar azad olunurlar. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın".

Məhəmməd peyğəmbər (s.) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzinə (qəzasını) tutmalı və ya fidiyə verməlidirlər.

Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir. Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

***Hacı Sənan Əbu oğlu***

# Qarabağlı müfti

Görkəmli Azərbaycan alimi, şairi də din xadimi müfti molla Abbas Cavanşir 1817-ci ildə Ağdam rayonun Sarıcallı kəndində anadan olmuşdur. Xan nəslindən və dövrünün tanınmış adamlarından olan Abbas Cavanşir nəsil-nəcəb şəcərəsinə baxmayaraq, təhsil almağa, maarifə yiyələnməyə daha çox səy göstərmişdir.

İlk təhsilini Şuşada məşhur alim, Ətabatla oxumuş Hacı Mirzə Əliquludan (1780-1857) almışdır. Burada ərəb, fars, türk dillərini mükəmməl öyrənən A.-Cavanşir İslam tarixinə, astronomiyaya, şəriət, məntiq, rəml, hipnoz və həyat elmlərinə də onun məktəbində yiyələnmişdi.

Qazandığı biliklə kifayətlənməyib təhsilini davam etdirmək üçün iyirmi yaşında Türkiyəyə getmiş, Saxarya mahalının "Sineyi-səğir" mədrəsəsinədaxil olmuşdur. Bu mədrəsədə riyaziyyatı, həndəsəni, ədəbiyyatı, tarixi, şəriəti beş barmağı kimi öyrənmişdi. Otuz ilə yaxın orada yaşamış, Türkiyənin müxtəlif məktəb və mədrəsələrində müəllimlik etmişdir.

1867-ci ildə əlli yaşında Vətəni Şuşaya qayıtmış, burada eyni üsulla açılan məktəblərdə şəriət, riyaziyyat və astronomiyadan dərs demişdir. O məktəbdə dərs deyə-deyə müxtəlif fənlərdən dərslik, həyat elminə aid əsər, bir çox riyazi kitablara isə haşiyələr yazmışdır.

Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan" (Unudulmuşların məclisi) adlı poeziya məclisinin üzvü olmuş, fars və türk dillərində şeirlər qələmə almışdır. Qəzəllərində "Abbas" təxəllüsünü işlətmişdir.

Molla Abbas Cavanşirin şeirləri Azərbaycan Respublikası EA-nın Əlyazmalar İnstitutunda qorunur.

Üç il Şuşada müəllimlik etdikdən sonra Kürdüstana qayıtmış, orada əvvəlcə baş axund, sonra ona etimad göstərilərək müftiyülislam seçilmişdir. Əhali arasında dərin hörmət, nüfuz qazanır və ömrünün sonuna kimi bu vəzifədə işləyir.

Molla Abbas Cavanşir Şuşa mədrəsəsində işlərkən Mir Möhsün Nəvvaba (1833-1919), Mirzə Həsən Tahirzadəyə (1885-1893) dərs demişdir.

Böyük alim, şair və din xadimi, müfti Molla Abbas Cavanşir 1880-ci ildə Kürdüstanda vəfat etmiş, orada da dəfn olunmuşdur.

***Gülməmməd Məmmədzadə, 1992-ci il, "Amin" qəzeti***



*İxtiyar Əziz*

## Səcdə qılaq gəl onlara!

Anaların qədrini biz,
Bilməliyik sağlığında.
Lap qursaq da qızıldan büst,
Faydası yox, yoxluğundan.

Müqəddəs varlıq sayılır,
Yer üzündə analar.
Sındırmayaq qəlblərini,
Nə olar ki, a insanlar?!

Budur dostlar sizə sözüm,
Uca tutaq gəl bu adı.
Bu dünyada bil anasız,
Yaşamağın yoxdu dadı.

Ana! o ad qarşısında,
Diz çökmək bir ibadətdir.
Yolunda can versək belə,
Deməyək ki, əziyyətdir.

Bir övlad tək daim bizim,
Borcumuz var analara.
Onlar bizim qibləmizdir,
Səcdə qılaq gəl onlara!

## Ə, sənə lazımdı qamış?

***Bir nəfər məni yoxlamaq üçün "Qamışa bir şeir yaz görüm" dedi. Yazdığım ona tutarlı cavab oldu,***

Ə, bağçanda qızılgül ək!
Qulluq elə, nazını çək!
Cəh-cəh elə sən bülbül tək!
Güldən-çiçəkdən de, danış.

Qəmişini çək, özünə,
Gözlə girməsin gözünə.
Qulaq as müdrik sözünə,
Mənalı, məntiqli danış,
Ə, sənə lazımdı qamış?

Şairə söz atmağının,
Söz atdın kös atmağının.
Qıyğacı göz atmağının,
Səliqə-sahmanlı danış,
Ə, sənə lazımdı qamış?

Keşik çək haqqın yolunda,
Mələklərin sağ-solunda.
Oynama şeytan rolunda,
Haqdan, ədalətdən de, danış,
Ə, sənə lazımdı qamış?

Əzizi sən qınama ha,
Qınadınsa, sınama ha.
Oturacaq sənə baha,
Bunu deyir sənə Talış,
Ə, sənə lazımdı qamış?

# O yaxşı adam idi...



Mən Hacı Vəliağa Nobat oğlu ilə 20 ilə yaxın müddətdə birlikdə yaşadım, onun qulluğunda durdum. Evin, ailənin böyüyü, yol göstərəni kimi o da hər bir qayğımıza qaldı: sevinci sevincimiz oldu, kədəri kədərimiz. Ən çox xoşuma gələn, məni razi salan Hacı Vəliağanın əsl insana xas olan keyfiyyətlər, onun həssaslığı, alicənablığı, vədinə həmişə sadiq və səbirli, təmkinli olması, əliaçıqlığı, sıxıntısı olan insanlara xoş münasibəti idi. Yadımdadır, hacı eşitmişdi ki, qonşulardan biri xəstədir, kimsəsizdir, almağa dava-dərman pulu tükənib. O, təqaüdünü alan kimi qonşuya lazımi qədər pul çatdırmış, müalicəsinin qayğısına qalmışdı. Bunu eşidən tanış adamlar Hacı Vəliağaya təşəkkür etmişdilər.

Hacının belə xeyirxahlıq nümunələri çox olub. Onları sayıb dilə gətirmək istəmirəm. Xeyirxahlıq etməklə, çətinə düşən adamlara dayaq durmaqla, evinə gələn qonaqlara ehtiram göstərməklə hacı rahatlıq tapar, elədiyi yaxşılığın əvəzini istəməzdi. Evimizə gələn qonağa şəxsən özü qulluq göstərər, onları həyətə qədər ötürər, dua-səna edərdi.

Hacı Vəliağa xeyir-şər adamı idi. O, toya, yasa getməyə, rəsmi yığıncaqlarda iştirak etməyə, qohumlarını yoluxmağa vaxt tapardı. Həmişə səliqəli geyinər, ağayana yeriyər, mərdlik qanunları ilə hərəkət edərdi.

Hacı Vəliağa iki oğul, bir qız atası idi, nəvə-nəticələrini çox sevərdi. Onların saf gülüşlərindən, asta yerişindən fərəhlənər, onları görməyə həmişə can atardı. Onu da deyim ki, gənclər və uşaqlar, ahıllar hacını çox sevirdilər.

Ömrünün son üç ilində hər iki böyrəyindən əziyyət çəkirdi, dializ xəstəsi idi. Lənkərandakı xəstəxanaya gedib-gəlməkdən bezmişdi. Lakin hər bir ağrıya-acıya dözür, yaşamaq ümidini itirmişdi. 2020-ci il avqustun 17-də axşam özünü narahat hiss edirdi, bənizi solmuşdu. Bir neçə söz danışdıqdan sonra saat 10-a qalmış ömrünü başa vurdu, haqq dünyasına qovuşdu.

Allahın rəhməti, behişt səadəti qismətin olsun, Hacı Vəliağa!

***Xanımgül Şahpələngova, Lerik şəhər sakini***

# Stalinin oğlu Jakov Cuqaşvilini kim öldürüb?



İ.V.Stalin uzun illər SSRİ kimi nəhəng bir dövlətə rəhbərlik edib. Bu bir həqiqətdir ki, ikinci cahan hərbində faşist Almaniyasının məğlubiyyətə düçar edilməsində onun böyük rolu olub, əsgərlər "Stalin uğrunda!" deyərək güllə qabağına gediblər. Stalinin zabit oğlu Jakov Cuqaşvili almanlara əsir düşərkən atası "Mən əsgəri marşala dəyişmərəm" deyib. Düzdür, bir sıra repressiyaları bəzən onun xəbəri olmadan və ya "düşmən obrazı" yaratdıqdan sonra həyata keçiriblər. Biz İ.V.Stalini göyə qaldırıb onun siyasi fəaliyyətinə qiymət vermək fikrində deyilik. O, sadəcə öz dövrünün sayılan şəxsiyyəti olub.

Ukraynanın Donbas vilayətində qulluq edərkən Məşədi Səyyad Həsənovu əsgər yoldaşları ilə birlikdə bədii özfəaliyyət kollektivinin üzvü kimi hərbi əsirlər üçün konsert verməyə aparırlar. Onlardan ikisi Jakov Cuqaşvilidən danışırdı. Konslagerdə bir yerdə olmuşdular.

Jakov Çuqaşvili şəxsi işində öz əli ilə yazdığı tərcümeyi-halında 1908-ci ildə Bakı şəhərində peşəkar inqilabçı ailəsində anadan olduğunu göstərmişdir. İyulun 16-da 14-cü zirehli diviziyanın batareya komandiri, Stalinin böyük oğlu Jakov Cuqaşvili almanlara əsir düşmüşdür. İkinci dindirməni "Mərkəz" ordu qrupunun komandanı general-feldmarşal Günter Klyuqenin qərargah-mənzilində peşəkar casus kapitan Ştrikfeld aparmışdır. Faşistlərin onu öz tərəflərinə cəlb etmək istəyi uğursuzluqla nəticələnmiş, "Oflaq XIII-D" zabir düşərgəsində onun inamını qıra bilməmişdilər. Jakov Cuqaşviliyə ən çox tez-tez düşərgə radiosu ilə verilən Stalinin belə bir məlumatı pis təsir edirdi: "Hərbi əsir yoxdur, Vətən xaini var".

1943-cü il aprelin 14-də axşam Jakov baraka girməyə etiraz edib və "ölü zonaya" atılıb.

Həmin düşərgədə növbətçi olan SS zabiti Konrad Xarfik Jakovun ölümünü belə xatırlayır: "Çuqaşvili məftildən keçib bitərəf şırıma düşdü. Sonra o, bir ayağını tikanlı məftilin üstünə qoyub eyni vaxtda sol əli ilə izolyatordan tutdu. Onu buraxıb elektrik xəttindən yapışdı. Həmin an tərpənməz qaldı, sağ ayağı arxaya qoyulmuş, sinəsi irəli verilmiş şəkildə qışqırdı: "Keşikçi, siz ki, əsgərsiniz, qorxaq olma, məni güllələyin!"

Xarfik tapançadan atəş açır. Güllə sağ qulağından dörd santimetr aralı başına dəyir".

Hitlerçilər Jakov Çuqaşvilinin ölümünü gizlədirdilər. Onlar qorxurdular ki, SSRİ-də alman əsirləri ilə də bu cür hərəkət edərlər. Faşist Almaniyası təslim olduqdan sonra J.Cuqaşvilinin əsirlikdə olması ilə bağlı sənədlər almanların arxivini araşdıran amerikan-ingiltərə qrupunun əlinə keçmiş, əsl həqiqət isə uzun illər gizli saxlanılmışdır.

Jakov Çuqaşvilinin zabit xarakteri, əsgər dəyanəti, vətəndaş mərdliyi yaxşı nümunə idi.

***İdris Şükürlü***







*Qələmin ucu – qılıncın gücü*

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Həzi Aslanov küçəsi, 1
Tel: (070) 200-21-54

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Sifariş: 179

